22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günüdür

Şəffaflıq və ədalətin təmin edilməsində mübariz missiya

Noyabrın 22-si Azərbaycanda Ədliyyə işçilərinin peşə bayramıdır. Bu əlamətdar gün ümummilli lider Heydər Əliyevin ədliyyə sahəsinə göstərdiyi böyük diqqət və qayğının əyani təzahürüdür. Məhz onun təşəbbüsü ilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş Ədliyyə Nazirliyinin Əsasnaməsi tarixi gün kimi seçilmiş və ədliyyə işçilərinin peşə bayramı elan edilmişdir. Bu bayram ədliyyə sahəsində çalışan hər kəs üçün təkcə bir tarix deyil, həm də böyük minnətdarlıq və qürur günüdür. Hər il ədliyyə işçiləri bu günü dərin sevgi və ehtiramla qeyd edərək ulu öndərin hüquq sisteminin inkişafına verdiyi töhfələri minnətdarlıqla yad edirlər. Ədliyyə sahəsinə verdiyi əvəzsiz töhfələr onun uzaqgörən siyasətinin və hüquq sistemimizin təkmilləşdirilməsi sahəsində göstərdiyi misilsiz xidmətlərin ən parlaq nümunəsidir. Bu bayram yalnız bir peşə günü deyil, həm də ədalət mühafizəsinin qoruyucularının, qanunun aliliyinə xidmət edənlərin böyük zəhmətinə verilən dəyərin göstəricisidir. Bu gün Azərbaycan ədliyyəsinin bütün əməkdaşları ulu öndərin bizə bəxş etdiyi bu dəyərli mirası qorumaq və onun ruhuna layiq olmaq üçün çalışır, dövlətimizin hüquq sisteminin daha da möhkəmlənməsi naminə əzmlə fəaliyyət göstərirlər.

Nazirliyin səmərəli fəaliyyəti nəticəsində məhkəmə sisteminin bərpası və təkmilləşdirilməsi, məhkəmə aparatlarının müasir tələblərə uyğun qurulması həyata keçirilmişdir. Ədalət mühakiməsinin keyfiyyətli şəkildə icrası üçün zəruri infrastruktur yaradılmış, məhkəmə binaları əsaslı təmir edilmiş və ya yenidən inşa olunmuşdur. Bu proseslər məhkəmə-hüquq sisteminin funksionallığını artırmaqla vətəndaşlara daha yüksək səviyyəli hüquqi xidmətlərin göstərilməsini təmin etmişdir. Bununla yanaşı, hüquq maarifçiliyi sahəsində də böyük nailiyyətlər əldə edilmişdir. Hüquqsevərlər və tədqiqatçılar üçün zəngin hüquq ədəbiyyatı kitabxanasının yaradılması cəmiyyətdə hüquqi biliklərinin yayılmasına və qanunçuluq mədəniyyətinin yüksəldilməsinə əhəmiyyətli töhfə vermişdir. Bu kitabxana hüquqşünaslar, tələbələr və alimlər üçün dəyərli bir resurs mərkəzinə çevrilmişdir.

Xüsusi vurğulanmalıdır ki, Azərbaycan dövləti müasir dövrün çağırışlarına uyğun olaraq rəqəmsallaşma və innovativ həllərə əsaslanan islahatlarla gələcəyə doğru inamla irəliləyir. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşmış güclü ictimai-siyasi və sosial-iqtisadi bünövrə, eləcə də torpaqlarımızın işğaldan azad edilməsi ölkəmizdə sistemli dəyişikliklər üçün geniş imkanlar yaradıb. Rəqəmsal texnologiyaların tətbiqi isə bu prosesdə həlledici rol oynayır. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişaf strategiyasında rəqəmsal cəmiyyət quruculuğu mühüm prioritet kimi müəyyən edilib. Ölkə başçımızın təşəbbüsü ilə müxtəlif sahələrdə rəqəmsal texnologiyalar tətbiq edilir, müasir yanaşmalar hüquq və idarəetmə sahələrinə inteqrasiya olunur. Ədliyyə Nazirliyində islahatların təşəkkül tapdığını görmək mümkündür. Məhz müasir informasiya və kommunikasiya texnologiyaları ədalət mühakiməsinin effektivliyini artırmaqla yanaşı, şəffaflığın təmin olunmasında əvəzsiz rol oynayır. Bu sahədə atılan ən mühüm addımlardan biri Prezident İlham Əliyevin 2019-cu il 3 aprel tarixində imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmandır. Sözügedən sənəd məhkəmə-hüquq sistemində aparılan mütərəqqi dəyişikliklərin əsas "yol xəritəsi" kimi çıxış edərək ədalət sistemimizi müasir dövrün tələblərinə uyğunlaşdırmaq məqsədini daşıyır.

Təkcə son altı ildə nazirlik tərəfindən təqdim edilən elektron xidmətlərdən 15 milyondan çox istifadə edilməsi rəqəmsallaşmanın cəmiyyətimizdə oynadığı rolu aydın şəkildə göstərir. "Elektron hökumət" sisteminin fəal iştirakçısı olan Ədliyyə Nazirliyi vətəndaşlara qanunvericiliklə bağlı ödənişsiz və sürətli xidmətlər təqdim edir. Hüquqi aktların vahid elektron bazası artıq yüz minlərlə normativ sənədi əhatə edir. Cari ildə bu bazaya edilən 4 milyondan çox müraciət rəqəmsal hüquqi xidmətlərin nə qədər faydalı olduğunu bir daha təsdiq edir. Bununla yanaşı, Ədliyyə Nazirliyinin tətbiq etdiyi "Elektron notariat" sistemi hüquqi xidmətlərin göstərilməsində inqilab yaradıb. Bu xidmətlə vətəndaşlar artıq xaricdən belə videoəlaqə vasitəsilə notariat əməliyyatlarını həyata keçirə bilirlər. İki yüz mindən çox istifadəçiyə malik "Mobil notariat" tətbiqi xidmətlərdə operativliyi daha da artırır. Məhkəmə sahəsində islahatlar çərçivəsində "Elektron məhkəmə" sistemi yaradılıb. Bu sistem vətəndaşların məhkəməyə müraciətindən tutmuş qərarların icrasına qədər bütün prosesi əhatə edir. Hazırda ölkədəki 117 məhkəmənin 77-si bu sistemə qoşulub və 2025-ci ilə qədər bütün məhkəmələrin sistemə inteqrasiyası nəzərdə tutulur. Eynilə məhkəmə qərarlarının çevik icrasını təmin etmək məqsədilə "Elektron icra" sistemi istifadəyə verilib. Bu sistem vasitəsilə məhkəmə qərarları üzrə borcların ödənilməsi onlayn qaydada həyata keçirilir, nəticədə proseslər daha səmərəli təşkil olunur. Digər bir yenilik isə alternativ cəzaların tətbiqi üçün elektron qolbaqların istifadəsidir. Bu sistemlə 4000-dən çox məhkum elektron nəzarət altındadır.

Onu da qeyd edək ki, Azərbaycan məhkəmə sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması istiqamətində atılan addımlardan biri kimi Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, paytaxtda və bölgələrdə 35 məhkəmə üçün "hi-tech" müasir texnologiyasından istifadə edilərək ərsəyə gətirilmiş yeni binaları qeyd edə bilərik. Bu layihələr həm dövlət büdcəsi, həm də Dünya Bankının dəstəyi ilə reallaşdırılıb. Yeni məhkəmə binaları konseptual baxımdan tam müasir tərtibatda qurularaq vətəndaşların rahatlığı üçün ideal şərait yaradır. İKT-nin geniş tətbiqi sayəsində məhkəmə xidmətlərinin əlçatanlığı artıb, şəffaflığın təmin olunması üçün isə hakimlərlə qeyri-prosessual təmasların qarşısı alınıb. Bu binalar yalnız memarlıq baxımından deyil, həm də ədalətə çıxışın keyfiyyətini yüksəltməkdə mühüm bir mərhələdir. Beləliklə, Azərbaycan məhkəmə sistemi inkişafın yeni səviyyəsinə yüksəlir və dünya standartlarına uyğunlaşdırılır.

Azərbaycanda ədliyyə və məhkəmə sisteminin inkişafında Prezident İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli siyasi iradə və islahatlara verdiyi misilsiz dəstək mühüm rol oynayır. Dövlət başçısının bu sahəyə göstərdiyi xüsusi diqqət ədliyyə işçilərini üzərlərinə düşən məsuliyyəti daha böyük qürur və əzmlə yerinə yetirməyə sövq edir, ölkəmizin ədalət sistemi sahəsində yeni zirvələrə doğru irəliləməsinə inam yaradır.

Nurlan ABDALOV,
"Respublika".